**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

Dövlət Statistika Komitəsinin 19.02.2014-cü il
tarixli 8/02s nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

# RƏSMİ STATİSTİK MƏLUMATLARIN YAYILMASI SAHƏSİNDƏ SİYASƏT

**BAKI - 2014**

**MÜNDƏRİCAT**


| | | səhifə |
|---|---|---|
| I | Ümumi müddəalar | 5 |
| II | Statistik məlumatların təqdimatı | 6 |
| III | Statistik məlumatların keyfiyyətli şəkildə yayılması | 8 |
| IV | İstifadəçilərlə iş | 12 |
| V | Əsas statistik göstəricilər üzrə məlumatlara yenidən baxılması reqlamenti | 13 |
| VI | Statistik məlumatların vizualizasiya üsulları | 16 |
| VII | Statistik nəşrlərin dizayn üsulları üzrə vahid qaydalar | 21 |
| VIII | Regional siyasət | 27 |
| | Ədəbiyyat | 28 |

# I. Ümumi müddəalar

Dövlət Statistika Komitəsinin işinin vacib istiqamətlərindən biri statistika fəaliyyətinin nəticələrinin səmərəli yayılmasıdır. Bu sənəddə Dövlətstatkomun müvafiq sahədə fəaliyyətlərini müəyyən edən rəsmi statistik məlumatların yayılması üzrə siyasəti açıqlanmışdır.

**Əsas anlayışlar:**

**rəsmi statistika** – inzibati məlumatlar da daxil olmaqla, rəsmi statistika məlumatlarının istehsalı sahəsində fəaliyyətdir;

**rəsmi statistika məlumatları** – "Rəsmi statistika haqqında" Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq, rəsmi statistika məlumatlarının istehsalını həyata keçirən müvafiq icra hakimiyyəti orqanları, digər dövlət orqanları tərəfindən rəsmi statistika metodologiyası əsasında sosial, iqtisadi, demoqrafik, ekoloji və digər ictimai proseslərin kəmiyyət tərəfləri haqqında inzibati və ilkin məlumatların işlənməsi və ümumiləşdirilməsi nəticəsində əldə olunan məlumatlardır;

**statistik məlumatların yayılması** - əldə edilməsində tətbiq olunan forma və vasitələrdən asılı olmayaraq, məxfi sayılmayan rəsmi statistik məlumatların istifadəçilərə verilməsidir;

**məxfi statistik məlumatlar** – rəsmi statistika materiallarının istehsalı üçün toplanan və birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və ilkin məlumatların aşkar olunmasına imkan verən məlumatlardır.

Statistik məlumatların yayılması sahəsində fəaliyyət istifadəçilərin keyfiyyətli statistik məlumatlarla təmin olunması ilə yanaşı, onların rəsmi statistikaya inamının yüksəldilməsi baxımından əhəmiyyətlidir.

**Məqsəd:** İstifadəçilər üçün statistik məlumatların açıqlığının və anlaşıqlığının təmin edilməsidir. Bu halda istifadəçilərin Dövlətstatkom tərəfindən işlənən məlumatlara, onların metodologiyası, nəşrlərin əhatə dairəsi, vaxtlı-vaxtında olması, dövriliyi, qrafiki, onların yayılması və s. haqqında məlumatlara çıxışının olması nəzərdə tutulur.

**Vəzifə**: "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən istifadəçilərin ölkənin sosial-iqtisadi, demoqrafik, ekoloji və digər sahələr üzrə vəziyyəti barədə tam, dolğun, elmi cəhətdən əsaslandırılmış statistik məlumatlara olan tələbatının ödənilməsidir.

Statistik məlumatların yayılması siyasətinin əsas vəzifələrindən biri fərdi məlumatların məxfiliyinin təmin edilməsidir. Statistik məlumatların məxfiliyi statistik müşahidələrdə, müayinələrdə iştirak edən statistik vahidlərin inamının əldə edilməsi və qorunması üçün vacib şərtdir. "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsinə əsasən, məxfi statistik məlumatlar yalnız icmal rəsmi statistik materialların istehsalı və ya müstəsna hallarda statistik vahidin anonimliyi təmin edilməklə

(tanınmasına imkan verən vasitələr ləğv edilməklə) elmi məqsədlər üçün istifadə edilə bilər.

Rəsmi statistik məlumatların yayılması siyasəti aşağıdakı sahələri əhatə edir:

- təqdimat (statistik məlumatların təqdim olunması formaları);
- statistik məlumatların keyfiyyətli şəkildə yayılması;
- istifadəçilərlə iş;
- əsas statistik göstəricilər üzrə məlumatlara yenidən baxılması reqlamenti;
- statistik məlumatların vizualizasiya üsulları;
- statistik nəşrlərin dizayn üsulları üzrə vahid qaydalar;
- regional siyasət.

## II. Statistik məlumatların təqdimatı

Statistik məlumatların yayılmasının əsas vasitələri aşağıdakılardır:

- kütləvi informasiya vasitələrində press-relizlər formasında məlumatların verilməsi;
- Dövlətstatkomun rəsmi internet səhifəsində məlumatların yerləşdirilməsi;
- statistik məlumatların ekspres-məlumatlar, bülletenlər və statistik məcmuələr formasında yayılması;
- poçt və elektron poçt əsasında məlumatların verilməsi;
- tərəflər arasında razılaşdırılmış məlumat mübadiləsi əsasında statistik məlumatların verilməsi;
- hüquqi və fiziki şəxslərdən daxil olmuş fərdi sorğular əsasında statistik məlumatların təqdim edilməsi.

**Məlumatların yayılmasının ənənəvi vasitələri.**

Bura kağız formasında nəşr olunan və kifayət qədər tam informasiya və analitik bazanı, istifadəçilərə bərabər çıxışı təmin edən ölkənin sosial-iqtisadi vəziyyəti barədə aylıq nəşrlər, bülletenlər, məcmuələr, illik məcmuələr və s. statistik məhsullar daxildir.

Öz nəşrlərini effektiv şəkildə təqdim etmək üçün Dövlətstatkom tərəfindən özündə aşağıdakıları birləşdirən vahid format müəyyən edilmişdir:

- üz hissənin formatı;
- nəşrlərin strukturu (qısa icmal, ətraflı təhlil, statistik əlavə, metodoloji izahat);
- mətn və cədvəlin formatı.

Bu format Dövlətstatkomun bütün nəşrlərinə şamil edilir. Ümumilikdə Dövlətstatkomda aşağıdakı nəşrlər buraxılır:

**- Press-Ekspres-məlumatlar**

İlkin məlumatların yığılması və emalından sonra qısa müddət ərzində müəyyən məsələ ilə bağlı hazırlanan operativ statistik məlumatlardır.

**- Statistik bülletenlər**

Müəyyən sahə üzrə cari hesabatlar əsasında hazırlanan cədvəllərdən ibarət nəşrlərdir. Statistik bülletenlərdə verilən məlumatlarda növbəti nəşrlərdə dəyişiklik etmək mümkündür.

**- Aylıq və rüblük statistik icmallar**

Bunlar özündə statistik məlumatları əks etdirən cədvəl və qrafiklərlə yanaşı, qısa şərh və yekunlar da olan analitik nəşrlərdir.

**- İllik məcmuələr**

İllik məcmuələr istifadəçilər üçün iki funksiyanı icra edir: birincisi, onlar daha vacib, əhəmiyyətli uzunmüddətli statistik məlumatları təqdim edir; ikincisi, onlarda digər dövlətlərin statistik məlumatları da olur. İllik məcmuələr statistik məlumatların yayılması piramidasının son nöqtəsidir və flaqman kimi onların əsas vəzifələri ölkə daxilində və xaricində dövləti tanıtmaqdır. İllik məcmuələr hazırlanarkən cədvəl və diaqramların istifadəçilərin tələbatlarına uyğun verilməsinə, onların tərtibatına xüsusi fikir verilir, illik məcmuə eyni zamanda veb səhifəyə də yerləşdirilir.

**- Populyar təqdimatlar (prezentasiyalar)**

Bunlara əsasən kiçik kitabça (broşura, buklet) formasında buraxılan nəşrlər aiddir. Burada geniş ictimaiyyət üçün nəzərdə tutulan ölkə haqqında ən vacib məlumatlar, göstəricilər qısa şəkildə verilir.

**- Daxili istifadə üçün nəşrlər**

Metodoloji məsələlər, təsnifatlar, standartlar və s. bu kimi mövzular statistik işlərdə mühüm rol oynayır. Belə məsələlər daim müzakirə olunur, qərarlar qəbul olunur, fəaliyyət prinsiplərinə düzəlişlər edilir. Belə müzakirə və qərarlar Dövlətstatkomun gündəlik fəaliyyəti üçün həyati əhəmiyyət kəsb edir. Buna görə də, yeni bir təsnifat və ya yeni metodologiya qəbul olunursa, bu, dərhal nəşr olunur və əməkdaşlar arasında yayılır.

**Məlumatların yayılmasının multimedia vasitələri**.

Dövlətstatkomun məlumatlarının yayılmasının səmərəli metodlarından biri xüsusi proqram təminatı, elektron poçt, kompakt disklər və s. kimi multimedia texnologiyaları vasitələrindən istifadə etməklə məlumatların yayılmasıdır. Bu növ məlumatların əsas istifadəçiləri Prezident Administrasiyası, hökumət, nazirlik və idarələr, MDB ölkələrinin statistika orqanları və beynəlxalq təşkilatlardır.

**İnternet**.

Müasir dövrdə məlumatlara fərdi istifadəçilərin geniş əhatə dairəsinin çıxışının təmin edilməsi, statistika orqanının fəaliyyətinin əsas prioritetlərindən biridir. Bu tip istifadəçilər qrupunun məlumatlarla təmin olunması səviyyəsi ictimaiyyət tərəfindən statistik məlumatların keyfiyyətinin qiymətləndirilməsinə böyük təsir göstərir. Bununla əlaqədar olaraq, Dövlətstatkom öz sərəncamında olan bütün informasiya texnologiyalarından, xüsusilə İnternetdən istifadə edir. Bu sahə daim texnoloji yeniliklərə, yeni fəaliyyət prinsiplərinin təsirinə məruz qaldığı üçün həmişə onlar haqqında məlumatlı olmaq lazım gələcək. Buna baxmayaraq, bəzi əsas qaydalar əvvəlcədən yazılmalı və işi

internetlə bağlı olanlar arasında yayılmalıdır. Məsələn:

1. Press-relizlərin təqvimi: onların necə və nə vaxt yenilənməsi;
2. Press-relizlərin nəşrinin/redaktə olunmasının/formatlaşdırılmasının əsas prinsipləri;
3. Nəşr olunan cədvəllərin formatı: Excel, PDF və ya HTML cədvəllərin yüklənmək üçün açıqlığı;
4. Nəşrlərin veb səhifədə qısa icmal və ya tam mətn şəklində təqdim olunması və s.

## III. Statistik məlumatlarının keyfiyyətli şəkildə yayılması

Statistik məlumatların yayılması sahəsində siyasətin səmərəliliyi həm hazırlanan statistik məlumatların vaxtlı-vaxtında olması, həm də bu məlumatların nə dərəcədə reallığı əks etdirməsindən, onların dəqiqliyindən asılıdır. Bu baxımdan il ərzində statistik məlumatların hazırlanması və nəşr olunması qrafikinin tərtib edilməsi mühüm rol oynayır. Dövlətstatkom tərəfindən hər il buraxılan və yayılan statistik məlumatların məzmunu, onların əhatə dairəsi, hazır olma və yayılması təqvimi Azərbaycan Respublikası Nazirlər Kabineti ilə razılaşdırılan və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Kollegiyasının qərarı ilə təsdiq olunan Statistik işlər proqramı əsasında müəyyənləşdirilir. Hər il təsdiq olunan Statistik işlər proqramının dövlət idarəetmə orqanlarının, nazirliklərin, idarələrin cari və gələcək tələbatlarına nə dərəcədə uyğun olduğunu müəyyən etmək üçün Dövlətstatkom Proqramı onlarla müzakirə edir. Rəy və təkliflər alındıqdan və bunların müzakirəsindən sonra, Proqramın layihəsi razılaşdırılmaq üçün Nazirlər Kabinetinə təqdim edilir. Proqram əsasında il boyu Dövlətstatkom tərəfindən buraxılan və onun Veb-səhifəsində yerləşdirilən nəşrlərin qrafiki müəyyənləşdirilir. Statistik məlumatların işlənməsi və təqdim olunma qrafiki müəyyənləşdirilərkən aşağıdakılar nəzərə alınır:

- statistik məlumatların işlənib hazırlanması və təqdim olunması qrafiki ilkin məlumatların əldə edilməsi dövrünə uyğun olmalıdır;
- ilkin məlumatların işlənməsindən əldə edilən statistik məlumatların son istifadə üçün yayılmasından əvvəl onların yenidən nəzərdən keçirilməsinin nə dərəcədə tələb olunması və onun müddəti;
- məlumatların yayılması vasitələri (press-reliz, çap və ya elektron daşıyıcılar)

Statistik məlumatların əsas istifadəçiləri aşağıdakılardır:

**Daxili istifadəçilər**

- dövlət və yerli özünüidarəetmə orqanları,
- qeyri-hökumət təşkilatları,
- kütləvi informasiya vasitələri,
- təhsil və elm müəssisələri,
- vətəndaşlar.

İdarəetmə qərarlarının verilməsində rəsmi statistik məlumatlar mühüm əhəmiyyət kəsb etdiyindən dövlət orqanları ilə məlumat mübadiləsi işinə xüsusi diqqət verilir.

Dövlətstatkomun Aparatının Məlumatların yayılması şöbəsi və digər sahə şöbələri tərəfindən statistika orqanlarından ödənişsiz statistik məlumat əldə etmək hüququ olan istifadəçilərin - dövlət idarəetmə orqanları və bir sıra beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin siyahısı rəhbərliklə razılaşdırılır və onların reyestri aparılır. Reyestrə daxil edilən qurumlar Dövlətstatkom tərəfindən buraxılan nəşrlərlə təmənnasız şəkildə təmin olunur. Bundan başqa, dövlət orqanlarının onları maraqlandıran məsələlər üzrə rəsmi sorğular əsasında Dövlətstatkomdan statistik məlumatları əldə etmək hüququ vardır.

**Xarici istifadəçilər**

- Beynəlxalq təşkilatlar, MDB ölkələrinin statistika orqanları,
- Ölkənin xaricdə yerləşən səfirlikləri və diplomatik nümayəndilikləri,
- Başqaları.

Beynəlxalq statistik əməkdaşlıqda iştirak – ölkə haqqında informasiyaya ən yaxşı çıxışdır. Bunu nəzərə alaraq, Dövlətstatkom müxtəlif ölkələrlə, beynəlxalq təşkilatlarla məlumat mübadiləsini artırır, bu zaman ölkələrarası müqayisələri təmin etmək üçün beynəlxalq təsnifatlardan istifadə edir.

Statistik məlumatların səmərəli yayılması strategiyası istifadəçilərin müxtəlif qruplarının tələbatlarının ödənilməsinə yönəlib və iki səviyyədə reallaşdırılır:

1. **İctimaiyyətin toplu statistik məlumatlarla təmin edilməsi.**

**Vəzifə**: ümumi toplu statistik məlumatlara ictimaiyyətin ödənişsiz çıxışını təmin etməkdir.

**Toplu statistik məlumatların yayılması vasitələri:**

- Kütləvi informasiya vasitələri üçün press-relizlərin hazırlanması;
- Mətbuat konfranslarının keçirilməsi;
- Kütləvi kitabxanaların və ali məktəb kitabxanalarının məcmuələrlə təmin edilməsi;
- Vacib məlumatların rəsmi buraxılışından sonra veb-səhifədə onlara azad çıxışın təmin edilməsi.

Hər bir statistik orqanın müvəffəqiyyətli fəaliyyət göstərə bilməsinin əsas vacib şərtlərindən biri KİV-lə yaxşı münasibətlərin qurulmasıdır. Onlarsız bütün ictimaiyyəti tam, dolğun, aktual statistik məlumatlarla təmin etmək mümkün olmazdı. KİV-lər Dövlətstatkomun nüfuzunun artmasında, ona olan inamın yüksəlməsində əhəmiyyətli rol oynayırlar.

**Məlumatların yayılmasının ənənəvi modeli:**




**Yeni yayım modeli:**




**Press-relizlər.** Mətbuatın və digər kütləvi informasiya vasitələrinin statistik məlumatların yayılmasında xüsusi rolunu nəzərə alaraq məlumatların istifadəçilərə vaxtında çatdırılmasını təmin etmək üçün Dövlətstatkom onlara məlumatları təqdim edir. Bu məqsədlə Dövlətstatkomda mətbuat və digər kütləvi informasiya vasitələri ilə işə cavab verən, onları xüsusi formatda hazırlayan iqtisadi və sosial press-relizlərlə təmin edən və eyni zamanda Dövlətstatkomun Veb-səhifəsində yerləşdirən bölmə fəaliyyət göstərir. Əhalinin informasiya ilə təmin edilməsində televiziyanın rolunu nəzərə alaraq televiziyaların xəbərlər proqramı ölkənin iqtisadi və sosial vəziyyəti barədə press-relizlərlə təmin edilir. Dövlətstatkom press-relizləri hazırlayarkən aşağıdakıları rəhbər tutur:

1. Jurnalistlərin uzun və mürəkkəb məqalələri oxumaq üçün kifayət qədər vaxtı yoxdur. Buna görə də press-relizlər qısa və sadə olmalıdır. Onlar əsasən bir və ya iki səhifə həcmində olur;
2. Başlıqlar qısaldılmış olmalıdır - ən çox bir sətir həcmində;
3. Daha vacib başlıqdan istifadə edilməlidir;
4. Yarımbaşlıqlardan istifadə etmək. Yarımbaşlıqlar buraxılışın (nəşrin) təşkilinin

gücləndirilməsi üçün effektiv vasitədir. Onlar nəşri asan idarə olunan və mənalı hissələrə bölür;

5. Mətnə istifadəçilər üçün cədvəl və ya qrafiklər əlavə etmək;
6. Press-relizlərin tarixini göstərmək;
7. Bəzi əsas metaməlumatların əlavə edilməsi və ya onlara keçid üçün istinad qoyulması;
8. Əlaqə üçün məlumatların göstərilməsi: telefon / elektron poçt

Dövlətstatkom tərəfindən həyata keçirilən tədbirlərin təqdim olunması, həmçinin cari fəaliyyətinin işıqlandırılması (xüsusi statistik tədqiqatların həyata keçirilməsi, xüsusi statistik məcmuələrin buraxılışı) üçün Komitənin rəhbər işçiləri və mütəxəssisləri tərəfindən jurnalistlər, mətbuat işçiləri üçün mətbuat konfransları keçirilir. Mətbuat konfransları daha vacib statistik hadisələrə həsr edilməlidir. Məsələn, əhalinin siyahıyaalınmasının nəticələrinə, ölkənin sosial-iqtisadi həyatının ümumi qısa təhlilinə və s. vacib hadisələrə həsr olunmalıdır.

KİV-lə münasibət zamanı əməl olunması vacib olan iki əsas qayda var:

**Bərabər səviyyəli rəftar**

Bütün kütləvi informasiya vasitələri yeni açıqlanan statistik məlumatlarla eyni vaxtda təmin olunmalıdır. Bu zaman KİV-in müəyyən qrupuna üstünlüyün verilməsi barədə şübhə qalmayacaq.

**Press-relizlərin buraxılış təqvimi**

Təqvimi tərtib etməklə KİV bu haqda əvvəlcədən məlumatlandırılmalıdır. Buna əsasən jurnalistlər planlaşdırma / tədqiqat üçün müəyyən vaxt əldə edə bilirlər. Təqvim nə qədər tez verilərsə, bu, o qədər yaxşıdır. KİV-in əvvəlcədən veriləcək statistik məlumatların təqvimini bilməsi onları dövlət idarəetmə orqanlarından asılılığını azaldır və statistikaya olan inamını artırır.

Statistik məlumatlara ictimaiyyətin marağının artırılmasının əsas vasitələrindən biri - onların necə təqdim edilməsidir. Adətən statistikada məlumatlar “akademik” şəkildə təqdim edilir. Yəni, əvvəlcə hər hansı bir statistik müayinənin, siyahıyaalınmanın və s. həyata keçirilməsi metodları, metodologiyası bildirilir, sonra mümkün səhvlər olması göstərilir və ən nəhayət sonda zəruri informasiya olan nəticələr bildirilir. Belə struktur piramidaya bənzəyir – təməldən başlayaraq ən yüksək nöqtədə nəticələrin bildirilməsi. Bu üsulun ən böyük qüsuru odur ki, yalnız ən maraqlı istifadəçilər axıra kimi izləyəcək, yerdə qalanları isə son nəticələrə çatmamış işi yarımçıq qoyacaqlar. Bu, jurnalistlərin üslubundan fərqlənir. O üsluba görə əvvəlcə ən zəruri informasiya – son nəticə bildirilir, sonra isə bu nəticə əsasında informasiya qruplaşdırılaraq daha dərininə nüfuz edilir. Burada əsas müsbət cəhət odur ki, əgər mətn çox böyükdürsə, onda onunla yarımçıq şəkildə tanışlıq belə əsas son nəticələr barədə heç bir informasiya itkisinə səbəb olmur. Bu üslub tərsinə çevrilmiş piramida kimi də tanınır.

**2. İstifadəçilərin məqsədli qruplarının standartlaşdırılmış məlumatlarla təmin edilməsi.**

Hüquqi və fiziki şəxslərin fərdi sorğular əsasında Dövlətstatkomdan statistik məlumat əldə etmək hüququ vardır. Bu zaman onların statistik məlumatlara çıxışı aşağıdakılarla təmin olunur:

- kağız formasında nəşrlərin əldə edilməsi;
- məktub əsasında məlumatın əldə edilməsi;
- elektron formada məlumatlara çıxış (elektron poçt, elektron daşıyıcılar)

Statistik məlumatların istifadəçilərinə bu tip xidmətlər ödənişli və ödənişsiz ola bilər. Kağız formasında buraxılan nəşrlərin qiymətləri hər il tərtib olunan statistik nəşrlərin kataloqunda qeyd edilir. Hüquqi və fiziki şəxslər tərəfindən daxil olan sorğuların cavablandırılması əlavə vaxt, əmək sərfinə səbəb olarsa, bu halda ödənişli xidmət göstərilə bilər. Xidmətin ödəniş meyarı kimi statistik məlumatların hazırlanması xərclərini tam ödəyə bilməsi çıxış edir. Statistik məlumatların maya dəyərinə onların hazırlanması və istifadəçilərə təqdim edilməsi xərcləri daxildir.

## IV. İstifadəçilərlə iş

Göstərilən xidmətlərin keyfiyyətinin artırılması və müxtəlif istifadəçilərin statistik məlumatlara çıxışının təmin edilməsi üçün Dövlətstatkom öz praktiki fəaliyyətində aşağıdakıları həyata keçirir:

- il ərzində Dövlətstatkom tərəfindən buraxılacaq nəşrlərin kataloqunu nəşr edir və onu həm kağız formasında, həm də internetdə yerləşdirməklə ictimaiyyəti tanış edir;
- buraxılan statistik nəşrlərlə dövlət idarəetmə orqanlarını, elmi institutları və ali məktəbləri, beynəlxalq təşkilatları, müxtəlif dövlət və özəl müəssisələri tanış edir;
- bu və ya digər statistik məlumatlarla bağlı istifadəçilər tərəfindən daxil olan sorğuları qəbul edir və onlara cavab hazırlayır;
- statistik məlumatların istifadəçilərinin rəyinin öyrənilməsi, onların rəsmi statistikaya inam səviyyəsinin qiymətləndirilməsi, gələcək tələbatlarının müəyyən olunması üçün ölkə miqyasında müayinələr keçirir.

Statistik məlumatların yayılması işinin keyfiyyətinin artırılmasında və geniş ictimaiyyətin statistik məlumatlara çıxışının təmin edilməsində Dövlətstatkomun tərkibində 2002-ci ildən fəaliyyət göstərən kitabxananın böyük əhəmiyyəti var. Kitabxana fondunu külli miqdarda statistik məlumatlar, dərs vəsaitləri, statistik nəşrlər, eyni zamanda digər ölkələrin nəşrləri təşkil edir.

Kitabxana aşağıdakı xidmətləri göstərir:

- oxu zalında statistik nəşrlərdən istifadə etmək;
- kitabların müvəqqəti istifadəyə verilməsi.

## V. Əsas statistik göstəricilər üzrə məlumatlara yenidən baxılması reqlamenti

### Məlumatların yenidən nəzərdən keçirilməsinin əsas prosedurları

Məlumatların yenidən nəzərdən keçirilməsi (baxılması) dedikdə, rəsmi statistika orqanı tərəfindən əvvəllər ictimaiyyətə açıqlanan məlumatlarda düzəlişlərin edilməsi başa düşülür.

Nəşr olunmuş məlumatların yenidən nəzərdən keçirilməsi statistik fəaliyyətin əsas tərkib hissəsi kimi bütün ölkələr üçün vacib tədbirlərdən biridir. Məlumatların yenidən nəzərdən keçirilməsi statistik göstəricilərin işlənməsi və nəşr edilməsi prosesi ilə bağlıdır. Bu baxımdan məlumatların yenidən nəzərdən keçirilməsi üzrə siyasətin işlənməsi vacibdir. Beynəlxalq miqyasda məlumatların müqayisə olunmasının təmin edilməsi zərurəti statistik məlumatların təkrar nəzərdən keçirilməsinə tələbatı artırır.

Dövlət Statistika Komitəsinin fəaliyyətinin əsas məqsədi ictimaiyyəti zəruri statistik məlumatlarla təmin etmək və müstəqil, etibarlı, açıq və düzgün təşkilat kimi öz nüfuzunu məqsədyönlü şəkildə həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə yüksəltməkdən ibarətdir. Məlumatların nəzərdən keçirilməsinin hamıya məlum olan prosedurlarının mövcudluğu məhz bu məqsədə xidmət edir.

Belə siyasətin hazırlanması istifadəçilərə yoxlamaların nəticələrindən istifadə etmək imkanı yaradır. Məlumatların yenidən baxılması sahəsində hazırlanmış siyasətin əsas əlamətləri kimi onların həyata keçirilməsinin əvvəlcədən təyin olunmuş qrafikinin olması, ilbəil onun sabitliyi, dəqiqliyi, yoxlamanın səbəbləri və nəticələri haqqında ilkin xəbərdarlıq, istifadəçilərin yoxlanılan göstəricilər üzrə zaman sıralarına çıxışının asan olması, statistik nəşrlərə və məlumat bazalarına daxil edilən bu cür yenidən baxılmalar üzrə lazımi qeydlərin olması vacib sayılır. Məlumatlara yenidən baxılma əvvəlcədən müəyyən olunmuş qrafik əsasında həyata keçirilir və istifadəçilər arasında narahatçılığa əsas yaratmır. İstifadəçilərin tələbatlarının ödənilməsi üçün statistik orqan tərəfindən ilkin göstəricilər hazırlanır və yeni informasiyalar daxil olduqca, həmin göstəricilər yenidən nəzərdən keçirilir. Məlumatların təkrar nəzərdən keçirilməsi aylıq, rüblük və illik göstəricilərə şamil edilir. Məlumatların dəqiqləşdirilməsi istifadəçilərin maksimal dərəcədə aktual və dəqiq məlumatlarla təmin edilməsi məqsədilə həyata keçirilir. Statistik məlumatların müəyyən müddət keçdikdən sonra təkrar dəqiqləşdirilməsi rəsmi statistik məlumatlara olan inama mənfi təsir etməsi təsəvvürünü yarada bilər, lakin, digər tərəfdən, nəşr edilmiş göstəricilərdə yeni məlumatların vaxtında nəzərə alınmaması gələcəkdə daha çox dəqiqləşdirmələrin həyata keçirilməsinə səbəb ola bilər. Bundan əlavə, aşkar olunmuş yeni məlumatlar əsasında göstəricilərə vaxtında düzəlişlərin edilməməsi və nəşr olunmuş göstəricilərdə mövcud olan ən aktual məlumatların nəzərə alınmaması statistikaya olan etibara daha güclü zərbə vurur.

**Dəqiqlik.** Statistik məlumatların dəqiqliyi nəzərdə tutulan ölçmələri əks etdirən məlumatların kəmiyyət göstəricilərini və ya xarakteristikalarını təsvir edir. Bu anlayış çoxcəhətlidir. Təcrübədə vahid ümumi göstərici və ya dəqiqliyin ümumi ölçüsü (meyarı) mövcud deyil. Bir qayda olaraq, bu meyar statistik göstəriciləri səhvlər nöqteyi-nəzərindən qiymətləndirir və ənənəvi olaraq, səhv (sistematik səhv) və variantlıq (təsadüfi səhv) kimi

elementlərə bölünür, həmçinin ölçmədə buraxılan səhvləri azaltmaq məqsədilə statistik idarələr tərəfindən aparılan prosedurların təsvirini verir. Seçmə müayinələrdən alınan qiymətləndirmələrə uyğun olaraq növbəti göstəricilərdən istifadə etməklə dəqiqliyi ölçmək olar: əhatə, seçmənin səhvləri, cavablarda səhvlər, məlumatların işlənməsinin səhvləri, həmçinin ölçünün və ya modelin səhvləri.

**Aktuallıq.** Statistik məlumatların aktuallığı - məlumatların istifadəçilərin real ehtiyaclarını təmin etmə dərəcəsini əks etdirir. Bunun nəticəsində, aktuallığın

qiymətləndirilməsi, istifadəçilər və onların qruplarının aşkar olunması tələb olunur. Belə proqramın hazırlanması üçün mövcud və potensial istifadəçilərin müxtəlif ehtiyacları arasında balans müəyyən edilməlidir. İstifadəçilər arasında Dövlət Statistika Komitəsi tərəfindən aparılan məmnunluq sorğuları və onların nəticələri aktuallıq göstəricisi kimi ola bilər.

**Məlumatlara yenidən baxılmanın səbəbləri**

Bir qayda olaraq yenidən baxılmanın iki növü var:

a) “normal” statistik prosedur ilə əlaqədar yenidən baxılma:

- statistik göstəricinin hesablanmasında istifadə olunan məlumat mənbəyinə yeni, daha dəqiq məlumatların əlavə olunması. Məsələn, əvvəlcə iri təsərrüfat subyektlərinin məlumatları əsasında göstərici hesablanır, sonra daha kiçik subyektlərdən məlumat toplandıqca göstərcilərdə düzəlişlər edilir;
- bəzən, cari məlumatlar mövcud olmur, buna görə də ilkin göstəricilər əvvəlki dövrün məlumatlarının ekstrapolyasiyasına (əvvəlki dövrdə ardıcıl mövcud olan göstəricinin tendensiyasının növbəti dövrə şamil edilməsi) əsaslanır, statistik metodlardan istifadə etməklə göstərici şərti olaraq hesablanır. Sonradan məlumatlar daxil olduqca şərti hesablanmış göstəricilərdə düzəlişlər edilir;
- mövsümi amillərin təsirini əks etdirən mövsümilik əmsalının yenilənməsi. Yenicə başa çatmış il üzrə mövsümi amillərin təsiri hesablanır və həm müvafiq il, həm də əvvəlki bir neçə il üzrə mövsümi amilə əsaslanaraq yeni əmsal nəzərə alınmaqla göstəricilər hesablanır;
- indekslərin hesablanmasında istifadə olunan baza ilinin dəyişdirilməsi. Bu həm ayrılıqda, həm də indeksin hesablanmasında istifadə olunan xüsusi çəki əmsallarının dəyişdirilməsi ilə əlaqədar olaraq baş verir;
- statistik göstəricinin hesablanmasında istifadə olunan metodlarda, metodologiyada dəyişikliklіyin edilməsi, statistik göstəricilərin, məlumatların mahiyyətində, izahında və təsnifatlarda dəyişikliklіyin olması;
- respublika miqyasında statistik tədbirlərin - əhalinin siyahıyaalınması, kənd təsərrüfatı siyahıyaalınması və iqtisadi siyahıyaalmalar nəticəsində siyahıyaalmalararası dövr üzrə müvafiq göstəricilərdə düzəlişlərin edilməsi.

b) rəsmi statistika hesabatlarını təqdim edən statistik vahidlərin məlumatlarında

baş vermiş səhvlərin, habelə ayrı-ayrı mənbələrdən daxil olan məlumatların istifadəsi zamanı yaranan səhvlərin düzəldilməsi. Səhvlər aşkar olunduqdan sonra onların düzəldilməsinin dərhal həyata keçirilməsi vacibdir.

**Həyata keçirilmə vaxtına görə məlumatların yenidən nəzərdən keçirilməsi aşağıdakı kimi qruplaşdırılır:**

**Cari** – aylıq və rüblük məlumatlarda düzəlişlərin edilməsi;

**İllik** – il üzrə düzəlişlər aylar və ya rüblər üzrə məlumatlar hazır olduqdan sonra həyata keçirilir. İllik düzəlişlər adətən bir neçə ili əhatə edir.

**Genişmiqyaslı** – adətən statistik metodlarda, təsnifatlarda baş verən dəyişikliklərlə əlaqədar olaraq aparılır və uzunmüddətli dövrü əhatə edir.

**Məlumatların yenidən nəzərdən keçirilməsinin əsas prinsipləri:**

Məlumatların yenidən nəzərdən keçirilməsi istifadəçilərə kömək etməklə yanaşı, eyni zamanda məlumatların beynəlxalq səviyyədə daha real müqayisə olunmasına imkan verir. Məlumatların yenidən nəzərdən keçirilməsi aşağıdakı prinsiplərə əsaslanır:

1) məlumatların nəzərdən keçirilməsinin səbəbləri və təqvimi barədə statistik orqanın elanı nəşr olunmalı və istifadəçilər tərəfindən asan əldə olunmalıdır;

2) yenidən baxılmanın həyata keçirilməsi təqviminin istifadəçilər üçün vacib olduğu nəzərə alınmalı, yenidən baxılma dövrü illər üzrə sabit olmalı və vaxtında həyata keçirilməlidir;

3) geniş konseptual və metodoloji dəyişikliklər (yeni təsnifatların tətbiqi və s.) adətən hər dörd-altı ildən bir həyata keçirilməlidir ki, istifadəçilərə narahatçılıq yaratmasın;

4) bir-birilə qarşılıqlı əlaqədə olan göstəricilər dinamika sıralarının əldə edilməsinin mümkünlüyü üçün son bir neçə ili əhatə etməlidir;

5) həm ilkin, həm də düzəlişlər olunan zaman məlumatların dəqiqliyi qorunmalıdır;

6) hər bir statistik göstərici üzrə dinamika sıralarında ardıcıllıq, yekdillik təmin olunmalıdır;

7) məlumatlara yenidən baxılma barədə geniş məlumatlar rəsmi şəkildə qeyd olunmalı və istifadəçilər üçün açıq olmalıdır. Rəsmi qeyd kimi aşağıdakı şərtlər vacibdir: statistik nəşrlərdə həm ilkin, həm də nəzərdən keçirilmiş məlumatlar barədə qeydin olması, yenidən baxılmanın səbəbinin izah olunması, ardıcıl dinamika sıralarını təşkil etmək mümkün olmadıqda yaranan boşluqların izah edilməsi;

8) bu və ya digər statistik sahə ilə bağlı istifadəçilərə məlumatların yenidən nəzərdən keçirilməsinin nəticələrinin miqyası barədə məlumat verilməlidir;

9) məlumatlarda düzəlişlərin edilməsini həyata keçirərkən statistik orqanın kifayət qədər maliyyə və inzibati resurslara malik olması vacibdir.

Məlumatların dəqiqləşdirilməsi ilə bağlı yaranan problemlərin aradan qaldırılması və lazımsız tənqidlərlə üzləşməmək üçün statistik məlumatların dəqiqləşdirilməsi və yenidən baxılması sahəsində düşünülmüş və şəffaf siyasət həyata keçirilməlidir. Həmin siyasətin ən vacib tərkib hissəsi statistik məlumatların hazırlanması, dəqiqləşdirilməsi və dərc olunması təqviminin işlənilməsidir. Yuxarıda qeyd olunanları nəzərə almaqla, bu siyasətin həyata keçirilməsi məqsədilə Dövlətstatkomun sahə şöbələri tərəfindən müvafiq sahələr üzrə statistik məlumatların işlənməsi, təkrar yoxlanması qaydaları hazırlanmış və təqvimi tərtib edilir.

## VI. Statistik məlumatların vizualizasiyası üsulları

**Statistik qrafik** – müəyyən göstəricilərlə xarakterizə edilən statistik məcmuların şərti həndəsi fiqurlar və işarələr vasitəsilə təsvir olunan cizgisidir. Qrafik şəkildə təqdim olunnan statistik müşahidələrin nəticələrinin daha yaxşı mənimsənilməsinə imkan yaradır, statistik materialın qavranmasını xeyli dərəcədə asanlaşdırır, onu daha əyani və anlamlı edir. Qrafik bir təhlil metodu kimi statistik göstəriciləri əyani şəkildə göstərərək onları mənalı, aydın və başa düşülən şəkildə təsvir etməlidir. Statistik nəşrlərdə əsasən iki ölçülü qrafiklərdən istifadə olunması tövsiyə edilir. Mütləq və nisbi dəyərlər üzrə istifadə olunan qrafiklərin əsas növləri:

**Xətti diaqramlar**. Müxtəlif zamanlar üzrə bir neçə göstəricinin müqayisə olunması üçün istifadə olunur. Xətlər vasitəsi ilə göstəricilərin zamanlar üzrə dəyişmə dinamikasının təsvirini verir.

Nümunə



Nümunə

**Histoqram.** Ən sadə və geniş yayılan sütunvari diaqram növüdür. Bu qrafik növü vasitəsilə eyni ölçü vahidində ifadə olunmuş kateqoriyaların müqayisəsi göstərilir. Məsələn, ölkələr, rayonlar, kişilər və qadınlar, yaş qrupları və sair.




Bununla yanaşı bir kateqoriyanın bölmələrini ümumi yekuna (100%) görə təsvir olunması mümkündür.




**Dairəvi diaqramlar.** Dairəvi diaqramlar statistik məcmuların ən geniş yayılmış növüdür. Bu ondan irəli gəlir ki, bir tam məcmunun dairə şəklində göstərilməsi çox asan və əyanidir. Dairəvi diaqram yalnız hissələrin sayı az olduqda öz əyaniliyini saxlaya bilir. Əks halda, onun səmərəsi çox az olur və bu səbəbdən 5-6 hissədən çox olmayan diaqramların qurulması və onlarda dəyərlər ifadəsinin faizlə verilməsi məsləhət görülür.

Nümunə



**Piramida diaqramı**. Bu qrafik növü əsasən əhali strukturunu təsvir etmək üçün istifadə edilir, burada əhalinin sayı, cinsi və yaş qrupları kimi göstəricilərini birgə şəkildə təqdim etmək mümkün olur.

Nümunə

**Yaş qrupları üzrə əhalinin strukturu, 2012**




**Radar diaqramı.** Müxtəlif statistik göstəricilərinin aylıq dövr üzrə dəyişməsi dinamikasının əyani göstərilməsi üçün radar tipli diaqramdan istifadə olunması tövsiyə edilir.

Nümunə

**Pərakəndə əmtəə dövriyəsi, 2012**
milyon manat



**Statistik məlumatların tematik xəritə vasitəsi ilə vizualizasiyası.**

Tematik xəritə xüsusi seçilmiş mövzunun müəyyən coğrafi ərazilər üzrə əyani şəkildə göstərilməsi üçün təyinatlı xəritə növüdür. Tematik xəritələr vasitəsi ilə sosial, siyasi, mədəni, iqtisadi, sosioloji, və digər aspektlərin şəhər, ölkə, region, və qitə və sair coğrafi ərazilər üzrə təsvirlərini vermək mümkün olur. Bir tematik xəritə daxilində statistik və coğrafi məlumatların birləşdirilərək göstərilməsi iri həcmli cədvəllərdən istifadə etməkdən azad edir və məlumatların daha da aydın şəkildə təqdim edilməsinə xidmət edir. Tematik xəritələr vasitəsi ilə bir neçə statistik göstəricinin bir xəritə çərçivəsində göstərilməsi mümkündür. Tematik xəritələrin qurulmasında üç əsas vizualizasiya üsulu tətbiq olunur: ardıcıl rənglərlə; ardıcıl ölçülü dairələr; nöqtələr.

Nümunə (ardıcıl rənglər vasitəsi ilə məlumatların vizualizasiyası)

**2012-ci ildə əhalinin təbii artımı əmsalı**



Nümunə (ardıcıl ölçülü rənglər və dairələr vasitəsi ilə məlumatların vizualizasiyası)

## 2012-ci ildə əhalinin yerləşməsi və doğulanların sayı, nəfər




Nümunə (ardıcıl rənglər və nöqtələr vasitəsi ilə məlumatların vizualizasiyası)



## VII. Statistik nəşrlərin dizayn üsulları üzrə vahid qaydalar

**Titul vərəqəsinin tərtib edilməsi.**

Bütün statistik nəşrlərdə "Times New Roman" şriftindən istifadə edilməlidir. Səhifələrin kənar sahələri aşağıdakı kimi olmalıdır:

| | |
|---|---|
| A4 formatı (210 mm x297 mm) üçün: | yuxarıdan – 25 mm, daxildən – 20 mm<br>aşağıdan – 25 mm, xaricdən – 25 mm. |
| A5 formatı (148 mm x210 mm) üçün: | yuxarıdan – 18 mm, daxildən – 16 mm<br>aşağıdan – 20 mm, xaricdən – 19 mm. |
| A6 formatı (105 mm x148 mm) üçün: | yuxarıdan – 10 mm, daxildən – 7 mm<br>aşağıdan – 12 mm, xaricdən – 14 mm. |

Nümunə



## Titul vərəqinin arxa hissəsi.

Nümunə

"Məcmuənin adı"

Statistik məcmuə/2014 ____

_____________ redaktorluğu ilə

Times New Roman
A4 – 10 pt,
A5 – 9,5 pt,
A6 – 8 pt

Poçt ünvanı :
Əlaqə telefonları:
Faks:
E-poçt:
İnternet səhifədə yerləşməsi ünvanı (link)

Times New Roman, yarımqalın
A4 – 10 pt,
A5 – 9,5 pt,
A6 – 8 pt

**Şərti işarələr:**

**hadisə mövcud deyil «-»**

**statistik məlumat yoxdur «…»**
**hadisə baş vermişdir, lakin onun qiyməti uyğun ölçü vahidindən kiçikdir «0.0»**

**qiymətləndirmə, hesablama «*»**

**BBK 60.6**
**P31**
**P 0702000000/00(05) – 03**
**İSBN 9965 – 9315 – 2 – 6**

Times New Roman, yarımqalın
A4 – 10 pt,
A5 – 9,5 pt,
A6 – 8 pt

Times New Roman, kursiv
A4 – 10 pt,
A5 – 9,5 pt,
A6 – 8 pt.

© *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ,___il*

**Mətn materiallarının tərtib edilməsi.**

Mətn materialına aid edilir: «Ön söz», «Metodoloji izahlar», «Təhlil». Mətn səhifənin kənarından məsafə qoyulmaqla, uzununa düzlənmə ilə, sətirlərarası bir intervalla yazılmalıdır. İki dilli mətni iki sütunda yazmaq məsləhətdir. Əsasən yalnız mətndən ibarət olan jurnalda isə mətni iki-üç sütunda yerləşdirmək olar. Hər bir məcmuədə metodoloji izahlar mütləq olmalıdır. Burada, nəşrdə əks etdirilən göstəricilər barədə qısa məlumat və lazım gələrsə, hesablanan göstəricilərin hesablama metodikası əks olunmalıdır. Metodoloji izahatları nəşrin sonunda çap etmək məsləhətdir. Bölmə yeni səhifədən başlamalı, bölmənin adı mərkəzə düzlənməli və yarımqalın olmalıdır. Ön söz məcmuədə verilən statistik göstəricilərin qısa təsvirindən ibarət olmalıdır. Nömrələnmə 3-cü səhifədən başlamalıdır, şrift Times New Roman fontunda olmalıdır. Səhifələrdə nömrələr (tək nömrələr sağda, cüt nömrələr solda olmaqla) səhifənin aşağısında qoyulmalıdır.

Nümunə



**Ön sözün arxa hissəsinin tərtibi.**

Nümunə



**Mündəricatın tərtib edilməsi**

Nəşrin «Mündəricat» bölməsi olmalıdır və o, tək nömrəli səhifədən başlamalıdır. «Mündəricat» sözü sətrin mərkəzində yarımqalın şriftlə çap olunmalıdır. «Mündəricat» sözündən sonra nəşrin strukturuna uyğun olaraq, bölmələrin adından başlamaq lazımdır. Bölmələrin adları sol kənara, bölmələrin başlandığı səhifənin nömrəsi sağ kənara düzləndirilir. Adın sonundan sonra nömrəyədək nöqtələr qoyulmalıdır. Yalnız əsas bölmələrin adları böyük hərflərlə, yarımqalın şriftlə çap edilir.

Nümunə

Times New Roman, yarımqalın
A4 – 10 pt,
A5 – 9,5 pt,
A6 – 8 pt.

**Mündəricat**

Times New Roman, yarımqalın
A4 – 11 pt,
A5 – 10 pt,
A6 – 9 pt.


**1. ƏSAS GÖSTƏRİCİLƏR** ....................7
1.1. Sosial-iqtisadi inkişafın qısa xülasəsi ....................7
**2. SOSİAL-DEMOQRAFİK GÖSTƏRİCİLƏR**....................15
2.1. Əhalinin sayı....................15
2.2. Əhalinin miqrasiyası....................17
2.3. Sağlamlıq....................19
2.4. Pensiya təminatı və əhalinin sosial müdafiəsi.................... 21
**3. ƏHALİNİN HƏYAT SƏVİYYƏSİ**....................25
3.1. Əhalinin gəlir və xərcləri....................25
3.2. Minimum yaşayış həddi....................27
3.3. Sağlamlıq....................29
3.4. Pensiya təminatı və əhalinin sosial müdafiəsi....................31


Times New Roman
A4 – 11 pt,
A5 – 10 pt,
A6 – 9 pt.

**Cədvəllərin tərtib edilməsi.**

**Statistik cədvəl** – öyrənilən hadisə və prosesləri xarakterizə edən rəqəmsal materialın sistemləşdirilmiş rasional və əyani təsviridir.

Cədvəllərdən aşağıdakı hallarda istifadə edilir:

– dəqiq rəqəm tələb edən verilənləri təsvir etmək zərurəti yarandıqda;
– çoxlu sayda rəqəmləri kompakt şəkildə təsvir etmək zərurəti yarandıqda;
– məlumatı yekunlaşdırmaq lazım gəldikdə;
– mətndə və ya şəkil təsvirində sadə və dəqiq izah edilməsi çətin və mürəkkəb olan məlumatın təsviri üçün.

Statistik məlumatın əyani və kompakt təsviri vasitəsi olan cədvəllər düzgün tərtib edilməlidirlər.

Cədvəllərin tərtibatı ilə bağlı əsas tələblər.




**Son səhifənin tərtib edilməsi.**

Əgər nəşrdə ixtisarlar, ölçü vahidləri, abbreviaturalar varsa, onda nəşrin sonunda *«İxtisarlar» (və ya «Abbreviaturalar»)* bölməsi olmalıdır.

**İxtisarlar**

Nümunə

| | | | |
|---|---|---|---|
| Desimetr | dm | Kilovat | kvt |
| Santimetr | sm | Kilovat-saat | kvt/s. |
| Metr | m | At gücü | a.g. |
| Kvadrat metr | $m^2$ | Hektar | ha |
| Kub metr | $m^3$ | Milyon | mlyn. |
| Kiloqram | kq | Milyard | mlrd. |
| Kilometr | km | Ton | t. |
| Ton-kilometr | t-km | Qram | q. |

Yekun məlumatlardan ibarət olan nəşrlərdə bölmələr üzrə cavabdeh şəxsləri göstərmək lazımdır.

**Məcmuənin buraxılışında iştirak edənlər:**

| **Vəzifəsi** | **Adı** | **telefon** |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

## Son səhifənin arxa hissəsinin tərtib edilməsi.

Nümunə

«Nəşrin adı» / Statistik toplu/ şəhərin adı, il

Times New Roman

A4- 10 pt,
A5- 9,5 pt,
A6- 8 pt.

Buraxılış üzrə məsul şəxs : Şöbə ________________________
Şöbə rəisi ______________________
İcraçılar : ________________________
Tel.

Times New Roman

A4- 10 pt,
A5- 9,5 pt,
A6- 8 pt.

Həcmi :____ şərti çap vərəqi

Tiraj : _____ nüsxə

Kompüterdə yığılması : ____________

## VIII. Regional siyasət

Şəhər və rayon statistika idarələri statistik məlumatların yayılması zamanı öz öhdəliklərinə düşən vəzifələri həyata keçirirlər.

Bu məqsədlə Rayon Statistika İdarələri:

- il ərzində Dövlət Statistika Komitəsinin Kollegiyası tərəfindən təsdiqlənən statistik işlər proqramında nəzərdə tutulan tədbirləri (məlumatların yığılması, emalı, onların toplu hala gətirilməsi və respublika səviyyəsində təqdim olunması) icra edirlər;
- dövlət idarəetmə orqanları və yerli özünüidarəetmə orqanlarının, digər regional və yerli istifadəçilərin məlumatlara olan tələbatının ödənilməsini təmin edirlər;
- icra orqanları tərəfindən verilən tapşırıqlar əsasında respublika səviyyəsində hazırlanan metodologiya əsasında xüsusi müayinələr keçirirlər;
- öz səlahiyyətləri daxilində informasiya xidmətləri göstərirlər (regionun sosial- iqtisadi inkişaf səviyyəsini göstərən dinamik sıraların hazırlanması, iqtisadi hesabatların, məcmuələrin və bülletenlərin hazırlanması);
- öz nəşrlərinin daha keyfiyyətli təqdim olunması üçün Dövlətstatkom tərəfindən təsdiq və nəşr olunmuş vahid formatdan istifadə edirlər.

**Ədəbiyyat**

1. "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanunu, 1994
2. Доклад Конференции европейских статистиков, ООН, 2010
3. Политика распространения информации – проблемы и рекомендации, Комиссия ЕС, 2000
4. Удобная презентация статистических данных, Statistics Norway 2009
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin "Əsas statistik göstəricilər üzrə məlumatlara yenidən baxılması reqlamenti"
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin "Tərtibatın vahid stilistikasını (üslubunu) təmin etmək məqsədi ilə statistik nəşrlərin dizaynı üzrə təlimat"ı